**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİNİN BƏYANATI

**No: 09/36/115**
**14.10.2009**

10 oktyabr 2009-cu ildə İsveçrənin Sürix şəhərində Türkiyə Respublikası ilə Ermənistan Respublikası arasında diplomatik münasibətlərin qurulması və münasibətlərin inkişaf etdirilməsi haqqında imzalanmış protokollarla əlaqədar Azərbaycan Türkiyə İş Adamları Birliyi olaraq, bu məsələ üzrə həssaslığımızı və narahatlığımızı Azərbaycan və Türkiyə ictimaiyyətinin, eləcə də beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağı vacib hesab edirik.

Azərbaycan Türkiyə İş Adamları Birliyinin məsələ barədə daha əvvəl 7 aprel 2009-cu ildə yaydığı bəyanatda qeyd edildiyi kimi, yaşadığımız və fəaliyyət göstərdiyimiz regionda sabitliyin, davamlı iqtisadi inkişafın və əhalinin rifahının təmin olunması üçün ilk növbədə mövcud regional münaqişələrin, o cümlədən Ermənistan və Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun həlli vacibdir.

Azərbaycan Türkiyə İş Adamları Birliyi bəyan edir ki, Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində əhəmiyyətli irəliləyiş əldə edilmədikcə və Ermənistanın Türkiyəyə qarşı “erməni soyqırımı” iddiasından birmənalı surətdə imtina etmədikcə Türkiyə və Ermənistan arasında “münasibətlərin normallaşdırılması” adlanan hazırkı proseslər son nəticədə yalnız Ermənistanın və onun havadarları olan bəzi üçüncü ölkələrin və dairələrin maraqlarına uyğun olacaqdır.

Azərbaycan Türkiyə İş Adamları Birliyi hesab edir ki, hazırkı vəziyyətdə protokolların qüvvəyə minməsi ilə atılması nəzərdə tutulan addımların həyata keçirilməsi nəticəsində, o cümlədən qeyd edilən iki ölkə arasında sərhədlərin açılması Azərbaycan və Türkiyənin birgə malik olduğu strateji üstünlüklər heçə enəcək,

Azərbaycan və Türkiyə arasında siyasi, iqtisadi və sosial əlaqələrə ciddi zərbə vurulacaqdır.

Azərbaycan Türkiyə İş Adamları Birliyi xüsusilə qeyd etməyi vacib bilir ki, Türkiyə və Ermənistan arasında sərhədlərin açılması nəticəsində Türkiyənin iqtisadi mənfəət əldə edəcəyini söyləyən bəzi dırnaqarası ekspertlər və iş adamları ciddi spekulyasiya ilə məşğul olurlar. Ən adi hesablamalar belə göstərir ki, Türkiyənin bu addımdan əldə edəcəyi iqtisadi mənfəət itirəcəyi iqtisadi mənfəətdən qat-qat aşağı olacaqdır. Amma bunu da qeyd etməyi lazım bilirik ki, Türkiyədə ayrı-ayrılıqda bəzi şəxslər bu addımdan doğrudan da ciddi iqtisadi mənfəət əldə edə bilərlər və onların da ciddi-cəhdlə bu məsələyə dəstək vermələrinin arxasında məhz bu durur.

Azərbaycan Türkiyə İş Adamları Birliyi yuxarıda deyilənləri nəzərə alaraq, Türkiyə hökumətini Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycan xalqının qəbul edəcəyi həll olmadıqca, Türkiyə və Ermənistan arasında qeyd edilən "normallaşdırma prosesi"ni dondurmağa çağırır.

Azərbaycan Türkiyə İş Adamları Birliyi əsas məsuliyyət daşıyıcısı olan Türkiyə hökumətinin Azərbaycan və Türkiyə ictimaiyyətinin bu məsələdə haqlı narahatlığını diqqətə alaraq, Türkiyə rəhbərliyinin də dəfələrlə qeyd etdiyi kimi, Azərbaycanın dövlət maraqlarını əsas götürəcəyinə ümid etdiyini bildirir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**